Kesit Akademi Dergisi
The Journal of Kesit Academy

**ISSN: 2149 - 9225**

**Yıl: 5, Sayı: 21, Aralık 2019, s. 173-177**

**Araştırma Makalesi**

**Prof. Dr. Şehrabanı ALLAHVERDİYEVA**

Adıyaman Üniversitesi Fen Edebiyat Fakültesi Türk Dili ve Edebiyat Bölümü

sallahverdiyeva@adiyaman.edu.tr

# MOLLA NƏSRƏDDİN SİZİ DEYİB GƏLMİŞƏM EY MƏMİN MÜSƏLMAN GARDAŞLARIM

**Özet**

Azerbaycan ədəbiyyatı mətbuatı tarihində ilk inqilabi demokratik satirik məcmua olan "Molla Nəsrəddin" jurnalı 1906-cı il aprelin 7-də (19-da) «Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım» hayğırışı ilə mübarizə meydana girir. Bu jurnalın nəşri ilə Mirzə Cəlil Azərbaycan ictimai fikir, ədəbiyyat və mətbuatı tarixində yeni dövrün təməlini qoyur. İster milli müstəmləkə ağalığını, İran və Türkiyə despotizmini, istərsə də xalq Kütlələrini ağlagəlməz dərəcədə istismar edən burjua mükədar hökmranlığını ifşa edirdi. Qaniçən xanlar, bəylər və miədarlar, mövhumatçı ruhanilər jurnalın kəsgin satira hədəfinə çevrilirdi. Jurnal bütün dünya Müsəlmanlarına xitab edən dili ilə az bir zamanda Yaxın ve Orta Şərqdə yanqı oyadır.

**Açar Sözlər:** Cəlil, despot, satira,xalq,jurnal

**Abstract**

Molla Nasreddin, the first revolutionary democratic satirical magazine in the history of the Azerbaijani literary press, begins the fight on April 7, 1906 with the shout "I told you, my Muslim brothers." With the publication of this magazine, Mirza Jalil Azerbaijan lay the foundation for a new era in the history of public opinion, literature and the press. Esther exposes the imperialism of national colonialism, despotism of Iran and Turkey, and the bourgeois rule of the bourgeoisie, which exploits even the masses of the people. The bloodthirsty khans, bayes and maadars, the ruling clerics have been the target of the magazine's satire.

The magazine, in a language that appeals to Muslims all over the world, sparks a fire in the Middle East in the near future.

**Key Words:** Celil, despotic, satirically,public,journal

**Giriş**

Azərbaycan mətbuatı tarixində əvəzsiz rol oynamış, XX əsr ictimai fikir və ədəbiyyat tariximizdə yeni dövr açmış, klassik irsimizin dəyərli abidələrindən biri, təkcə Azərbaycanda deyil, bütün Yaxın və Orta Şərq ölkələrində siyasi satiranın ilk qaranquşu "Molla Nəsrəddin" jurnalı və onun nəşri tarixini öyrənməyin böyiik əhəmiyyəti vardır.

Azerbaycan ədəbiyyatı mətbuatı tarihində ilk inqilabi – demokratik satirik məcmua olan "Molla Nəsrəddin"jurnalı 1906-cı il aprelin 7-də (19-da) «Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım» ğırışı ilə mübarizə meydanma girir. Bu jurnalm nəşri ilə Mirzə Cəlil Azərbaycan ictimai fİkİr, ədəbiyyat və mətbuatı tarixində yeni dövrün təməlini qoyur. Jurnal Tiflisdə "Geyrət Mətbəəsi"ndə neşre başlamışdır. Jurnalın redakdoru böyük ədib, görkəmli satirik Cəlil Məmmədquluzadə idi. Jurnalın və redaktörün "Molla Nəsrəddin"adı ile fəaliyətə başlaması mənalı idi, onların qədim ve zəngin milli halk ədəbiyyatı ən ənələri, güclü şərk koloritiylə sıh bağlılığını göstərirdi. (A.E.S:24)

174

C. Məmmədquluzadə yazırdı: "Molla Nəsrəddin"i təbiət özü yaratdı, zaman özü yaratdı.(C.Məmmədquluzadə: s. 216)"Molla Nəsrəddin" müəyyən fasilələrlə 25 il çap olunmuşdur. O, əvvəlcə tiflisdə (1906-1918) az bir müddət təbrizdə(1921), sonra bakıda (1922-1931) fəaliyyət göstərmiştir. Tiflistə 370, təbrizdə 8, bakida 398 nömrəsi çıxmıştır. (A.E. sf:25)

Jurnalın maraqlı, rəngarəng programı vardı. İlk nömrə böylə bir programla çap olunmuştur:1.Məgalələr 2.Kəskin təngidlər 3.Felyetonlar 4.Məshəki şeərlər 5.Məzəli teleqramlar 6.Satirik hekayələr 7.Lətifələr 8.Poçt kutusu 9.Məshəki elanlar 10. Hususi elanlar 11.Karikatura və illüstrasiyalar Əslində molla nəsrəddin jurnalinin birinci nömrsəsi onun sonraki bütün nömrələri üçün feəliyyet programı idi. Satirik gülüş, dərin məzmunlu yumor jurnaldaki yazıların əsasını təşkil ədirdi. İstər üz qabığındaki mənali şəkil, istərsədə mirzə cəlilin 'sizi dəyip gəlmişəm' adlı program məqaləsi jurnalın məqsədini bəyan ədir, halqı mübarizəyə çağırırdı. Molla Nəsrəddin başlangıctan çarizmin milli qırgın siyasətini, inqilabi ideaları boğmak cəhdlərini qamçılayırdı.

"Molla Nəsrəddin" jurnalı təkcə Güney Qafqazda və Rusiyada deyil, Yaxın və Orta Şərq ölkələrində də geniş yayılmıştı. Jurnalın səhifələrində imperiaiist dövlətlərinin milli-miistəmləkə zülmü, çar mütləqiyyəti, Şərqdə ilk növbədə İran və Tiirkiyədə istibdad quruluşu,orta əsr feodal qalıqları, xalq kütlələrini ağlasığmaz dərəcədə istismar edən burjua-mülkədar ağalığı, gerilik, cəhalət, ətalət, dini fanatizm, saxta din xadimlərinin riyakarlığı çox cəsarətlə ifşa olunurdu.Nə qaniçən şahlar, sultanlar, bəylər, mülkədarlar və milyonçu kapitalistlər, nə də fanatik ruhanilər jurnalın öldüriicü satirasından kənarda qala bilmədilər.

Buna görə də təkcə çar inzibati-idarə orqanları deyil, həmçinin müsəlman xan, bəy və ruhaniləri də "Molla Nərəddin"dən ciddi surətdə narazı qalırdılar. Nəşrinin ilk giinlərindən bu

ünsürlər tərəfın dən təqib olunan "Molla Nəsrəddin" jurnalı dəfələrlə bağlanır, ayrı-ayrı nömrələri miisadirə olunur, redaktorları məhkəmə məsuliyyətinə cəlb edilərək cəzalandırılırdı. İran və Türkiyə müstəbidləri də "Molla Nəsrəd din"i öz ölkələrinə buraxmır, onu təqib edirdilər.Bütün bunlarabaxmayaraq Azərbaycanın milli mütərəqqi ruhlu ziyalıları "Molla Nəsrəddin"jurna lını daim müdafıə etmiş, onu hər cür təqiblərdən qorumuşlar. Müsəlman Şərqində də "Molla Nəsrəddin"i təqiblərdən qoruyan dostları az olmamışdır.

Şərqin məzlum zəhmətkeşlərinin dərdli qəlblərinin dərinlİKİərindən qopub gələn fəryadları, ah-nalələri "Molla Nəsrəddin" səhifələrində felyeton, şer və Karikaturalara çevrilərək geniş əkssəda doğururdu.

Jurnal həqiqəti yazmaqla, eyham və kinayəli sözlərlə xalqı qəflətdən oyadıb başa salmaq, bütün eyiblərini bir bir üzlərinə sadalayaraq onlarm «gözlərini açmağa», «yaxşı və yamanı» seçməyə, «azadlığm qədrini bilməyə» çağırırdı. Yazırdı: «Ey mənim müsəlman qardaşlarım!Ne zaman kİ, məndən bir gülməli söz eşidib ağzmızı göyə açıb və gözlərinizi yumub o qədər «xa-xa!...» edib güldünüz... o vaxt elə güman etməyin Kİ, Molla Nəsrəddinə gülürsünüz... Əgər bilməK istəsəniz Kİ, Kİmin üstünə güliirsünüz, o vaxt qoyunuz qabağnıza aynanı və diqqətlə baxınız ca- malınıza».(C.M. s.364)

Jurnal yazırdı: «Vallah sözii yenə aşKar söyləməK lazımdır. Mətləbi gizlətməKdən fayda yoxdur. Onu deməK istəyirəm Kİ, sözünü saxlayıb deməyən namərddir. Qorxunu mülahizə edib dərdi içində saxlamaq müsəlman arvadlarının sifətidir». (C.M. s.370)

«Mətləbi gizlətməkdən fayda» görməyən «Molla Nəsrəddin» jurnalı mərdliklə mübarizə meydanma girdi. Heçkimə və heç kəsə aman vermədən, bütün mənfiİİKİəri ifşa etdi. «Açdı sandığı, tökdü pambığı». Özünə çoxlu düşmən də qazandı. Din xadimləri jurnalın redaktorunun «qətlinə fitva» verdilər, jurnalı isə «zibil çuvalı» adlan- dırdılar.(A.E. s.50)

Molla Nəsrəddin» göstərirdi ki, Kəndli ilə müİkədar, kapitalist ilə fəhlə arasn- da heç vaxt «birlik və bərabərlik ola bilməz». Jurna l yazırdıki, «Nur ilə zülmət, od ilə barıt bir yerdə dura bilmədiyi kimi, xurafat ilə həqiqət, cahilanə təəssüblərlə siyasi fikirlər də bir yerdə durabilməz».(C.M. s. 320)

«Molla Nəsrəddin» milliyətindən asılı olmayaraq, məhz bütün zəhmətkeş xalqm düşmənlərinə qarşı mübarizə mövqeyində dururdu . 0, dünyəvi elmləri, qəzet və jurnal oxumağı avam camaata hər gün, hər saat «haram» buyuranları, xalqı ayılmağa qoymayanları həqiqi düşmənlər elan edirdi. Mən heç bir şeydən, hətta ölümdən də qorxmayıb həqiqəti yazacağam, bir vaxt olar mənim dostum düşmənimdən çox olar, mən ona əminəm».

Çar irticasının tüğyan etdiyi illərdə jurnalin təqibinin səbəbləri çox şaxəli olmuşdur. Qadın azadlığı məsələlərinə görə, bəhavilik dini təriqətinin tənqidinə görə və s. təqiblər də «Molla Nəsrəddin» və onun qələm ordusunun işini xeyli çətinləşdirir. Ancaq öz nəşri zamanı jurnal nə qədər çətinliklərə, güclü təqiblərə məruz qalmalarını Mirzə Cəlilin sonralar yazdığı : «Şahlarn, sultanların və şəriət mədarlarının nüfuzunu qırmaq» üçün heç şeydən çəkinməmiş milyonlar dəfə bu ünsürlərə qələm ilə zərbə endirməklə» bu sahədə böyük işlər görmüşdür.

Molla Nəsrəddin jurnalının yazıları rəngarəng olduğu kimi, onun təsir dairəsi də çox ge-niş idi. Jurnalın səhifələrində dərc olunan hər bir felyeton, şer, karikatura və digər yazılar İster

milli-müstəmləkə a ğalığını İran və Türkiyə despotizmini, istərsə də xalq kütlələrini ağlagəlməz dərəcədə istismar edən burjuva müikədar hökmranlığını ifşa edirdi. Qaniçən xanlar, bəylər və mikədarlar, mövhumatçı ruhanilər jurnalın kəsgin satira hədəfinə çevrilirdi. Yenicə yaranmış jurnal qısa bir vaxtda öz ətrafında demoKratİK ideyalı Azərbaycan ziyalılarIının böyük bir dəstəsini toplaya bildi. Məmmədəli Sidqi öz xatirələrində yazır: «Molla Nəsrəddin» jurnalın tekce keçmiş Çar Rusiyası ərazisində, İran və Türkiyədə deyil, habelə Amerika, İngiltərə, Fransa, İtaliya, Hindistan, Çin, Finlandiya və başqa öIkələrdə də abunəçiləri olmuşdır. Hazırda «Molla Nəsrəddin» jurnalı komplektləri Rusiya ilə yanaşı Paris, Kembric, Ankara, İstanbul, Tehran, Helsinki və başqa şəhərlərin KİtabxanaIarinda da mühafizə edilir.(A.E. s.48)

«Molla Nəsrəddin» jurnalı təkcə Azərbaycanda deyil, habelə Volqaboyu müsəlmanları arasında, Orta Asiya Iran və Türkiyədə də inqilabi satirİK mətbuat təməlini qoymuşdur. «Molla Nəsrəddin» jurnalının təsiri altında Bakida «Bəhlul», «Zənbur», «Mirat», «Kəlniyət», «Məzəli», «Tuti», «Babayi Əmir». Yerevanda «lək-lək»; Orenburqda «Qarçıqa», «ÇÖKÜC»; Kazanda - «Yaşen»,«Yalt-yult»;Həştərxanda-«Tup»; Təbrizdə- «Azərbaycan»; Rəştdə - «Nəsimi-Şimal»; Tehranda «Suri İsrafil», Istanbulda «Qaragöz», «Xoca Nəsrəddin» və başqa jurnallar çıxmışdır. XX əsrin əvəllərindəKİ inqilabi çarpışmalar zəminində orta əsr durğunluğu şəraitində cəhalət içində boğulan yüz milyonlarla məzlum əhali ayılıb yeni həyat, insan üçün ən ibtidai hüquqlar uğrunda mübarizəyə qoşulduğu bir zamanda meydana gələn «Molla Nəsrəddin» jurnalı tezliklə təkcə Zaqafqaziya və Rusiya müsəlmanları arasında deyil, habelə bütün Yaxın və Orta Şərq ölkelərində geniş yayılaraq oxucularının sevimli jurnalına çevrilir.

«Molla Nəsrəddin» jurnalının satira dili ilə ifşa etdiyi hadisələr əslində real həyat həqiqətləri idi. Ölən müsəlman, öldürən miisəlman, ağlayan müsəlman, gülən müsəlman».

Güc birlikdədir çağırışı ilə jurnal oxucularını başa salırdı ki, zəhmətkeş xalq yalnız güc və qüvvələrini birləşdirərək mübarizə aparmaqla zülm və əsarətdən azad olabilər.

Molla Nəsrəddin göstərirdi ki, yoxsullar nə qədər öz güc və qüvvələrini birləşdirib «bir-birinin fikrinə qalmağı xoşlamayacaqlar» zülm və əsarətdən azad ola bilməzlər.

Əgər istəyirsiniz ki, sizi də adam hesab eləyərək məclislərə qoysunlar... əvəla gərək birbirinizlə əl-ələ verəsiniz. (C.M. s.356)

Şərq istibdadı ilə mübarizəni qarşısmda başlıca məqsədlərdən biri kİmi qoymuş «Molla Nəsrəddin» Irandan tutumu Osmanlıya kimi müsəlman bəy ve xanlarmı, mollalarmı rahat qoymur», şahdan və sultandan başlamış adi tüfeylilərə qədər hamını qələmin iti ucuna qoyaraq, «hamı müşkülləri» acırdı.Məlumdur ki, 1905-1907-ci illərdəki birinci rus in-inqilabının təsiri ilə İran, Türkiyə, Hindistan və başqa Şərq ölkələrində inqilabi və milli-azadlıq hərəkatinin genişləndiyi bir dövrdə nəşrə başlayan «Molla Nəsrəddin» jurnalının elə bir nömrəsi yoxdur ki, orada Şərq müstəbidlərini ifşa edən yazı və karikatura dərc olunmasın.

Jurnalın nəşrə başladığı ilk aylardan etibarən onun İran və Türkiyəyə aparılması qadağan edilir.

Vladiqafqazda yaşayan İranlıların Tehranda milli əncümən sədrinin adına göndərdikləri və bir çox qəzetlərdə dərc olunmuş teleqramlarında onlar «Molla Nəsrəddin» 176

jurnalını İrana buraxmadığı üçün gömrük vəzirinə «öz nifrətlərini» bildirir və əncüməni-milli vəkillərindən xahiş edirlər ki, jurnalın «bütün İran şəhərlərinə azad surətdə göndərilməsinə» icazə verilsin.

Dövrdə qəzetlərin verdiyi məlumatdan aşikar olur ki, jurnalı iranlı oxucularının təkidi və tələbi ilə uzun danışıqdan sonra İran hökuməti «Molla Nəsrəddin» jurnalının həmin ölkəyə aparılmasını qadağan etməkdən əl çəkməyə məcbur olmuşdur. (A.E. s.33)

«Molla Nəsrəddin» jurnalının Türkiyədə təqibi də demək olar ki, İranla eyni vaxtda başlamışdır. Belə ki, Qafqazda və xüsusilə Azərbaycanda nəşr olunan demokratik mətbuatın TürKİyədə təsiri o qədər güclü idi ki, hətta Türkiyə hökuməti rəsmi surətdə Çar Rusiyası xarici işlər nazirliyinə müraciət edərəK. Qafqazda nəşr olunan demokratik fikirli mətbuatın Türkiyəyə göndərilməsini qa-dağan etməyi xahiş edir. Təkcə «Molla Nəsrəddin» kimi inqilabi-demokratik ruhlu bir jurnalın deyil, hətta səhifələrində «əncümən» və «ədalət» sözləri yazılmış hər hansı qəzet vəya jurnalın belə Türkiyəyə gətirilməsi qadağan edilir.(A.E. s.52)

Jurnalda verilmiş yazıları və o dövr mətbuatının dərc etdiyi materialları diqqətlə izlədikdə maraqlı faktlar ortaya çıxır. «Molla Nəsrəddin» jurnalı Türkiyə sultanı Əbdülhəmid haqqında Karikatura və yazılar verdikdə Türkiyənin Tiflisdəki baş Konsulu əwəlcə «Molla Nəsrəddin» redaktorunun özünə «sifariş göndərir» ki, Sultan Ədbülhəmidi ifşa edən keskin yazı və Karikaturalar verilməsini dayandırın. Əks təqdirdə o, redaKtoru «Molla Nəsrəddin»i Turkiyəyə buraxmayacağı ilə qorxudur. Lakin Konsul Feyzibəyin bütün bu ciddi cəhdləri «Molla Nəsrəddin» jurnalının sultan Əbdülhəmid istibdadına qarşı döyüşkən ruhunu sarsıda bilmir.



Müsəlman aləminde yankı oyadan Molla Nəsrəddin jurnalı Azərbaycanın iləri görüşlü yazarlarını ətrafında toplamıştır. M.Ə. Sabir, S. Mümtaz, Ə. Nazmi, Ə. Hakverdiyev, Ə. Qemküsar, M.S. Ordubadi, Ö.F. Nimedzadə, Ə. Razi,Ə. Məhzun, B. Abbaszade. Jurnalın səhifələrində öz satirik əsərleri ilə fəal iştirak edirdilər. Bunlardan başka jurnalda yüzlərlə gizli imzalar vardı ki, kimə aid olduğunu təyin etmək çətindi.

Dövrün inqılabcı, publisist, realist-maarifpərvər yazıcıları jurnalı qaragüruhçulardan müdafiə edirdilər. N. Nərimanov, Ü. Hacibəyov, F. Köçərli, S. Hüseyin, H.Minasazov və başkalarının bu sahədə səyi hususi qeyd olunmalıdır. Cəlil Məmmedquluzadənin ve "Molla Nəsrəddin"in Yaxın ve Orta Şərqdəki fəalliyyətini incələmək gərəktiği düşüncesindəyəm.

**KAYNAKÇA**

Azərbaycan Ədəbiyyatı Tarixi , Bakı Nəşriyatı, 1960

Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) Felyotonlar, Məqalələr, Xatırələr, Məktublar, Azərbaycan Dövlət Universiteti Nəşriyatı.1961

XX Əsr Azərbaycan Ədəbiyyatı.Maarif Nəşriyatı,1982.

Ş Allahverdiyeva , Cəlil Məmmədquluadenin Əsərlərinin Dili. Azərbaycan Nəşriyatı,1998.